

"Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var".

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 9 oktyabr 2021-ci il №79 (2587) https://mod.gov.az Qiyməti 30 qəpik


## Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram**:

NATO-nun Əfqanıstandakı Qətiyyətli Dəstək Missiyasında Azərbaycan Respublikasını yüksək səviyyədə təmsil etmiş, öz xidməti vəzifələrini və qarşıya qoyulmuş tapşırıqları yerinə yetirərkən şücaət və fədakarlıq göstərmiş Azərbaycan Respublikası Müdafiə Nazirliyinin aşağıdakı hərbi qulluqçuları təltif edilsinlər:

**"İgidliyə görə" medalı ilə**

Abdullayev Cəsarət Ramazan oğlu - mayor
Gəncəliyev Həsən Altay oğlu - kapitan
Abduləzimov Əli Xanlar oğlu - tibb xidməti baş leytenantı
Hacıyev Pərviz Əskər oğlu - baş leytenant
İsmayılov Elmar Elnur oğlu - baş leytenant
Salahov Gündüz Vəliyəddin oğlu - baş leytenant
Yusifli Seymur Şəmistan oğlu - baş leytenant
Zeynalov Elvin Elman oğlu - baş leytenant
Quliyev İlkin Məstan oğlu - leytenant
Ağaliyev Kamran Məmmədağa oğlu - baş gizir
Seyidov Mirbağır Miryaqub oğlu - baş gizir
Ağayev Şəhram Hilal oğlu - gizir
Həşimov Sahil Nağı oğlu - gizir
Mahmudzadə Tural Nazim oğlu - gizir
Məhərrəmov Cahangir Çingiz oğlu - gizir
Hüseynov Vasif Vahid oğlu - baş çavuş
Məmmədov Vüqar Məmməd oğlu - əsgər
Musayev Rövşən Nail oğlu - əsgər
Rzayev Qafar Tofiq oğlu - əsgər

**"Hərbi xidmətlərə görə" medalı ilə**

Nəsirli Səməd Yaşılxan oğlu - baş leytenant
Saqizadə Məhəmməd Elman oğlu - baş leytenant
Abdunov Saleh Valeh oğlu - çavuş
Əcəmov Zaur Zabil oğlu - çavuş
Əliyev Vüsal Qurbanxan oğlu - çavuş
Həsənov Rusif Yusif oğlu - çavuş
Kərimov Alik Kərim oğlu - çavuş
Mirzəmətov Vadim Mihman oğlu - çavuş
Baxşiyev Elman Əlhüseyn oğlu - kiçik çavuş
Familzadə Əliheydər Ədalət oğlu - kiçik çavuş
Həziyev Pilağa Bəfalı oğlu - kiçik çavuş
Qəhrəman Elmir Elnur oğlu - kiçik çavuş
Musayev İsmət Cəlil oğlu - kiçik çavuş
Şabutov Şabut Sakit oğlu - kiçik çavuş
Paşayev Seymur Silduz oğlu - baş əsgər
Bayramov Ağabala Bəhram oğlu - əsgər
Əzizov Pərviz Qubad oğlu - əsgər
Muradov Zahid Məmməd oğlu - əsgər
Tahirov Çingiz Abdulla oğlu - əsgər
Tarıverdiyev Fariz Əfqan oğlu - əsgər.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 7 oktyabr 2021-ci il

# "Azərbaycan xalqı heç bir zaman öz haqqını başqasına verməz"



***Xalqımızın ümummilli lideri Heydər Əliyevin bünövrəsini qoyduğu siyasətini bütün sahələrdə uğurla davam etdirən ölkə başçısı İlham Əliyev ordu quruculuğunun inkişafına da daim böyük töhfə verib, prioritet elan edib, yüksək diqqət və qayğı ilə yanaşıb. Ali Baş Komandanın məqsədyönlü siyasəti nəticəsində Azərbaycan Ordusunun maddi-texniki bazası möhkəmləndirilərək, yüksək dəqiqliyə və çox böyük məhvetmə gücünə malik müasir silahlar, döyüş və nəqliyyat helikopterləri, təyyarələr, hava hücumuna qarşı ən müasir qurğular, zirehli maşınlar, tanklar və artilleriya qurğuları ilə təchiz olunub. 44 günlük Vətən müharibəsində peşəkar hərbçilərimiz arsenalımızda olan silahlardan məharətlə istifadə edərək illərdir düşmən əsarətində qalan torpaqlarımızı işğalçılardan təmizlədilər. Onların qorxmazlığı və şücaəti nəticəsində Ermənistan ordusu darmadağın edildi.***

Ali Baş Komandanın rəhbərliyi altında Vətən müharibəsində zabit və əsgərlərimiz qəhrəmanlıq göstərib. Məhz onların gücü və iradəsi nəticəsində düşmən ordusu məğlubiyyətə uğradı. Cəsur döyüşçülərimiz qorxu bilmədən irəliləyib "məğlubedilməz Ermənistan ordusu" mifini darmadağın etdilər. Beləliklə, sentyabrın 27-dən əks-hücum əməliyyatı ilə başlanan Vətən müharibəsi şanlı qələbə ilə sona çatdı, 44 gün davam edən hərbi əməliyyatlar çərçivəsində Azərbaycan Ordusu işğalçı dövlətin silahlı qüvvələrini darmadağın edərək, böyük Zəfər qazandı.

"N" hərbi hissəsində döyüşlər zamanı düşmənə göz açmağa imkan verməyən, işğalçıların çoxlu sayda hədəflərini məhv edən "Smerç" reaktiv yaylım atəş sisteminin heyəti ilə tanış olduq. Şəxsi heyət baş leytenant Əliheydər İslamovun nəzarəti altında məşğələyə cəlb olunmuşdu.

- "Smerç" döyüş maşını avtomatlaşdırılmış bələdçilik və yanğın idarəetmə sistemi ilə təchiz edilib. 300 mm çaplı olan bu silah 12 boru paketini 38 saniyəyə atır. Yenidən döyüşə hazır vəziyyətə gətirmək üçün şəxsi heyətə 36 dəqiqə vaxt verilir. Düşmən tərəfindən aşkar olunmamaq üçün heyət 3 dəqiqə ərzində atəş yerini dəyişərək döyüşə davam edir. Beləliklə, tərkibində dörd "Smerç" sistemi olan batereya 48 ədəd raketlə təxminən radiusu 800 metr olan sahəni məhv edə bilir.

**(Ardı 2-ci səhifədə)**

# Türkiyənin yeni hərbi attaşesi Azərbaycanın Müdafiə nazirinə təqdim olunub

*Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, oktyabrın 8-də Türkiyə Respublikasının Azərbaycan Respublikasına yeni təyin edilən hərbi attaşesi general-mayor Zəkəriyyə Yalçın Müdafiə naziri general-polkovnik Zakir Həsənova təqdim olunub.*



Müdafiə naziri yeni təyin olunan hərbi attaşeni Azərbaycanda fəaliyyətə başlaması münasibətilə təbrik edib, ölkələrimiz arasında hərbi əməkdaşlığın genişləndirilməsi sahəsində fəaliyyətində ona uğurlar arzulayıb.

Ölkəmizdə hərbi attaşe kimi fəaliyyətə başlamasından məmnunluğunu ifadə edən general-mayor Z.Yalçın Azərbaycan-Türkiyə əlaqələrinin, xüsusilə hərbi sahədə əməkdaşlığın inkişafı üçün səylərini əsirgəməyəcəyini bildirib.

Görüşdə Azərbaycan ilə Türkiyə arasında bütün münasibətlərin, o cümlədən hərbi əməkdaşlığın qardaşlıq, dostluq üzərində qurulduğu vurğulanıb. Bildirilib ki, bu əlaqələr yüksələn xətt üzrə inkişaf edir.

Tərəflər, həmçinin regiondakı hərbi-siyasi vəziyyəti, hərbi, hərbi-texniki, hərbi təhsil, hərbi tibb və qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

# Müdafiə naziri general-polkovnik Zakir Həsənov: Üçtərəfli fəaliyyətlərimiz regionda sabitliyin qorunmasına yönələn sülhməramlı mesaj kimi qiymətləndirilməlidir

Azərbaycan, Gürcüstan və Türkiyə hərbçilərinin iştirakı ilə keçirilən birgə təlimlər hərbi birləşmələr arasında əməliyyat uzlaşmasının əldə olunmasına yardım edəcək, üçtərəfli fəaliyyətlərimizin yeni mərhələyə keçməsinə zəmin yaradacaq və nəticədə regional təhlükəsizliyə töhfə verəcək.

AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov oktyabrın 5-də Türkiyə və Gürcüstanın müdafiə nazirləri ilə üçtərəfli görüşdən sonra təşkil olunan mətbuat konfransında deyib.

Üçtərəfli görüşün əhəmiyyətinə toxunan nazir bildirib ki, bu cür görüşlər ölkələrimiz arasında strateji səviyyəli dialoqun bariz nümunəsidir. Həm ikitərəfli, həm də üçtərəfli görüşlərdə üç dost və qonşu xalq arasında münasibətlərin və fəaliyyətlərin ikitərəfli və üçtərəfli formatlarda inkişaf etdirilməsinin vacibliyi və səmərəliliyi qeyd olunub.

"Biz bu formatda münasibətlərimizin perspektivlərini də müzakirə etdik və qarşılıqlı maraq doğuran istiqamətlər barədə geniş fikir mübadiləsi apardıq. Bölgədəki terrorizm və separatizm fəaliyyətlərinin davam etdirilməsinin regionda sülhün və sabitliyin bərqərar olmasına, iqtisadiyyatın inkişafına, eləcə də beynəlxalq fəaliyyətlərin təhlükəsizliyinə birbaşa təhdid olduğunu qeyd etdik", - deyə general-polkovnik Zakir Həsənov vurğulayıb.

Nazir bildirib ki, görüşdə üç ölkənin Silahlı Qüvvələri arasında hərbi, hərbi təhsil və hərbi tibb sahələrində əməkdaşlığın perspektivləri, keçirilən birgə təlimlərin təkmilləşdirilməsi imkanları barədə də fikir mübadiləsi aparılıb. Həmçinin üçtərəfli formatda keçirilən təlim və treninqlərin intensivləşdirilməsinin zəruriliyi qeyd edilib.

COVID-19 pandemiyasının yaratdığı çətinliklərə baxmayaraq, cari ildə üç ölkə hərbçilərinin iştirakı ilə bir sıra tədbirlərin planlaşdırılaraq keçirildiyini vurğulayan Azərbaycanın Müdafiə naziri deyib: "Hesab edirəm ki, dövlətlərimiz arasındakı səmimi münasibətlər və müdafiə sahəsi üzrə üçtərəfli əməkdaşlıq sülh naminə tərəfdaşlığın dünyaya örnək olacaq bir nümunəsidir. Üçtərəfli fəaliyyətlərimiz regionda sabitliyin qorunmasına yönələn sülhməramlı mesaj kimi qiymətləndirilməlidir".

# Naxçıvanda "Sarsılmaz qardaşlıq-2021" Azərbaycan-Türkiyə birgə döyüş atışlı taktiki təlimi davam edir



*Naxçıvanda "Sarsılmaz qardaşlıq-2021" Azərbaycan-Türkiyə birgə döyüş atışlı taktiki təlimi davam edir. Təlimin ssenarisinə əsasən, bölmələr praktiki fəaliyyətləri yerinə yetirirlər.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, bölmələrin qarşılıqlı fəaliyyətinin koordinasiyasına nail olmaq üçün komanda məntəqələrindən idarəetmə sistemləri vasitəsilə qoşunlar fasiləsiz idarə olunur, birləşmə və hissələr döyüşə hazırolma planlarına uyğun fəaliyyət göstərir.

Komandirlər tərəfindən ərazi qiymətləndirilir, düşmən mövqelərinə gizli yaxınlaşma istiqamətləri seçilir, hərəkət marşrutları öyrənilir, şəxsi heyətin fəaliyyəti müxtəlif üsullarla məşq etdirilir.

Xüsusi həmlə qrupları tərəfindən düşmən mövqelərinə yaxınlaşma, düşmənin optik cihazlarından və sərrast atəşindən yayınma fəaliyyətləri icra edilir.



Döyüş təyyarələri, hərbi daşıma və zərbə helikopterlərinin cəlb edildiyi təlimdə çətin pilotaj manevrlərlə təlim-məşq uçuşları keçirilir.

# "Azərbaycan xalqı heç bir zaman öz haqqını başqasına verməz"

(Əvvəli 1-ci səhifədə)

Dərs bitdikdən sonra qrup rəhbəriylə həmsöhbət oluruq. Baş leytenant Əliheydər İslamov bildirdi ki, rəşadətli ordumuz müasir texnoloji silahlarla qəsbkarların komanda-idarəetmə məntəqələrini, raket və artilleriya vasitələrini, döyüş texnikalarını, təminatını və digər mühüm hədəflərini sıradan çıxartdı. "Əlbəttə, biz döyüşlərin ilk günündən qazanılan uğurla kifayətlənməyib hər gün düşmən ordusu mövqelərinin dərinliyinə irəliləyirdik. Biz dünyaya sübut etdik ki, Azərbaycan xalqı heç bir zaman öz haqqını başqasına verməz".

Gizir Rafiq Atlıyev bildirdi ki, cəsur əsgərlərimiz hər zaman qarşılarında dayanan vəzifələrin öhdəsindən layiqincə gəlmək üçün bütün bilik və bacarıqlarından yetərincə bəhrələnirlər. "Nəzəri biliklərlə yanaşı əsgərlərimiz illik döyüş hazırlığı planına əsasən, keçirilən təlimlərdə də fəal iştirak edir, vərdişlərini təkmilləşdirir, döyüş qabiliyyətlərini artırırlar. Bölməmizdə xidmət edənlər hər zaman düşmən təxribatlarının və hücumlarının qarşısını alaraq, onlara layiqli cavablarını verməyə hazırdırlar".



Doğma torpaqlarımız uğrunda döyüşənlərdən biri də gizir Fərid Mehdiyevdir. O, söhbətə qoşularaq dedi ki, əzəli torpaqlarımızı işğalçılardan azad etdiyimiz üçün sevincliyəm. - Şükürlər olsun ki, övladlarımız ərazi bütövlüyü bərpa olunmuş ölkədə böyüyəcəklər. Gələcək nəsil Vətən müharibəsində şücaəti ilə tanınan oğullarımızın yolunu davam etdirəcək, ölkəmizin inkişafı üçün əllərindən gələni əsirgəməyəcəklər. İnanıram ki, tez bir zamanda işğaldan azad olunmuş torpaqlarımızda abadlaşdırma işləri yekunlaşacaq. İllər sonra yenidən o yerlərdə sülh və əmin-amanlıq hökm sürəcək.

- Hərbi xidmətə Biləsuvar rayonundan çağırılmışam,- deyə əsgər Məhsum Bayramlı söhbətə başladı. - Həmişə hərbi forma geyinib Vətənimə əsgər olmaq istəyirdim. Bu gün qalib ordunun əsgəri olduğum üçün isə ikiqat sevinirəm. Hərbi xidmətdə peşəkar komandirlərimizin nəzarəti altında qısa müddət ərzində zəruri hərbi bilik və vərdişlərə yiyələndim. Öyrəndiklərimizi Vətən müharibəsində düşmənə qarşı tətbiq edərək Qarabağımızı mənfur düşmənin əsarətindən qurtardıq.

**Baş leytenant**
**Orxan HÜSEYNLİ**
**"Azərbaycan Ordusu"**

# HHQ-nin Mərkəzi Komanda Məntəqəsi və Peyk Rabitəsi İdarəetmə Mərkəzinin fəaliyyəti təkmilləşdirilir





***Müdafiə nazirinin tapşırığına əsasən, Müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-leytenant Kərim Vəliyev Hərbi Hava Qüvvələrinin (HHQ) Mərkəzi Komanda Məntəqəsində (MKM), o cümlədən Rabitə, İnformasiya Texnologiyaları və Kibertəhlükəsizlik Baş İdarəsi Mərkəzi Rabitə Qovşağının Peyk Rabitəsi İdarəetmə Mərkəzində olub.***

Müdafiə nazirinin müavini - HHQ komandanı general-leytenant Ramiz Tahirov müasir avtomatlaşdırılmış idarəetmə sistemləri ilə təchiz edilmiş komanda məntəqəsinin fəaliyyəti barədə Baş Qərargah rəisinə məruzə edib. Bildirilib ki, ən yeni texnoloji avadanlıqla təchiz edilmiş MKM qarşıya qoyulan döyüş tapşırıqlarının HHQ tərəfindən operativ icrasını təmin edir.

Qeyd edilib ki, Vətən müharibəsi dövründə komanda məntəqəsindən döyüşlərin fasiləsiz idarə olunması və ordu aviasiyasının döyüş tapşırıqlarının uğurlu icrasına nəzarət həyata keçirilib. Bu da Azərbaycan HHQ-nin döyüş əməliyyatları boyunca düşmən üzərində hava üstünlüyünün saxlanılmasını təmin edib.

Sonra Baş Qərargah rəisi Peyk Rabitəsi İdarəetmə Mərkəzində olub. Bildirilib ki, təhlükəsizlik tədbirləri nəzərə alınmaqla peyk rabitə sistemi əsasən "Azərkosmos" ASC-nin peyki üzərindən fəaliyyət göstərir.

Baş Qərargah rəisi azad olunmuş ərazilərimizdə yerləşən qoşunlarımızın dayanıqlı və təhlükəsiz rabitəsinin təmin edilməsi ilə bağlı Müdafiə nazirinin müvafiq tapşırıqlarını aidiyyəti üzrə vəzifəli şəxslərə çatdırıb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

## "Gürcüstan, Azərbaycan və Türkiyə arasında hərbi əməkdaşlıq bundan sonra da uğurla davam edəcək"

Gürcüstan, Azərbaycan və Türkiyə arasında dostluq və qarşılıqlı dəstək bundan sonra da uğurla davam edəcək.

AZƏRTAC xəbər verir ki, bu sözləri Gürcüstanın Müdafiə naziri Cuanşer Burçuladze deyib.

Nazir bildirib ki, Gürcüstan, Azərbaycan və Türkiyənin dövlət və hökumət başçıları üçtərəfli formatda əməkdaşlığa böyük önəm verirlər. Bu da bizə müdafiə və hərbi sahədə əlaqələrimizi daha da möhkəmləndirməyə imkan yaradır.

Onun sözlərinə görə, koronavirus pandemiyasına baxmayaraq, türkiyəli və azərbaycanlı hərbçilər Gürcüstanda keçirilən "Noble Partner" və "Agile Spirit" təlimlərində iştirak ediblər. Bu isə hər üç tərəfin birgə əməkdaşlığa verdiyi önəmin bariz nümunəsidir.

C.Burçuladze ikitərəfli və üçtərəfli məhsuldar görüşlərə görə Azərbaycanın Müdafiə naziri general-polkovnik Zakir Həsənova və Türkiyənin Milli müdafiə naziri Hulusi Akara minnətdarlığını bildirib.

# Mühəndis-istehkam qoşunlarının hazırlığı yoxlanılıb









Müdafiə nazirinin tapşırığına əsasən, Müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-leytenant Kərim Vəliyev mühəndis-istehkam qoşunlarının hərbi hissələrində olub.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, bölmələrin döyüş hazırlığını yoxlayan Baş Qərargah rəisinə məruzə olunub ki, şəxsi heyət mühəndis qoşunlarında silahlanmaya qəbul edilmiş müasir mühəndis texnikası və avadanlıqlarından effektiv istifadə etmə bacarıqlarını təkmilləşdirir.

General-mayor Anar Kərimov mühəndis bölmələrinin fəaliyyəti ilə bağlı brifinq təqdim edib.

Qeyd olunub ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, yeni yaradılan mühəndis taborlarının komplektləşdirilməsi işləri sürətlə davam etdirilir. Qardaş Türkiyədən gələn mütəxəssislər tərəfindən onların hazırlığı yüksək şəkildə həyata keçirilir.

Azad edilən ərazilərin mühəndis-istehkam bölmələri tərəfindən minalardan və partlamamış döyüş sursatlarından təmizlənməsi işlərinin də davam etdirildiyi diqqətə çatdırılıb. Bildirilib ki, dağlıq ərazilərdə yerləşən bölmələrimizin mövqeləri istiqamətində yeni yolların çəkilməsi üzrə mühəndis işləri icra edilir.

Sonra hərbi hissənin təlim poliqonunda mühəndis-istehkamçılar təlim-məşq nümunələri nümayiş etdiriblər.

Azad edilən ərazilərimizdə mühəndis işlərinin daha da sürətli aparılması ilə bağlı Müdafiə nazirinin müvafiq tapşırıqları aidiyyəti üzrə vəzifəli şəxslərə çatdırılıb.

Sonda xidmətdə fərqlənən bir qrup hərbi qulluqçu təltif edilib.

# Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Türkiyə Silahlı Qüvvələrinin nümayəndə heyəti ilə görüşüb

*Oktyabrın 7-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov Türkiyə Respublikası Silahlı Qüvvələrinin 3-cü Ordu Komandanı general-polkovnik Yavuz Türkgəncinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.*



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ali Məclisin sədri qardaş Türkiyə Respublikası Silahlı Qüvvələrinin nümayəndə heyətini Azərbaycanın Naxçıvan Muxtar Respublikasında görməkdən məmnunluğunu bildirib. Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Türkiyə arasında ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlərdən bəhs edən Ali Məclisin sədri "Sarsılmaz qardaşlıq - 2021" birgə döyüş atışlı taktiki təlimin uğurla başa çatması, eləcə də yeni vəzifəyə təyin olunması münasibətilə Yavuz Türkgənciyə və nümayəndə heyətinə təbriklərini çatdırıb. Ali Məclisin sədri Azərbaycan-Türkiyə birgə təlimlərinin təcrübə mübadiləsi baxımından əhəmiyyətini vurğulayıb, göstərilən dəstəyə görə Türkiyə dövlətinə və Silahlı Qüvvələrinə ehtiramını ifadə edib.

Türkiyə Respublikasının 3-cü Ordu Komandanı general-polkovnik Yavuz Türkgənci səmimi qəbula görə nümayəndə heyəti adından minnətdarlığını bildirib, ikitərəfli əlaqələrimizdə ordu quruculuğu sahəsində görülən işləri yüksək dəyərləndirib. Yavuz Türkgənci bu istiqamətdə fəaliyyətin davam etdiriləcəyini və hər zaman Azərbaycanın yanında olacaqlarını bildirib.

Sonda xatirə şəkli çəkdirilib.

# Hərbi Məktəbin orkestr heyəti Türkiyədə beynəlxalq festivalda iştirak edib



Müsabiqələr, festivallar mübarizə meydanıdır, burada insanların bacarığı, gücü ortaya çıxır. Kim güclüdürsə, kim bacarıqlıdırsa, o da qalib gəlir, qələbəyə sevinir. Vətəndaşı olduğu ölkəni yarışlarda şərəflə təmsil edir. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin hərbi orkestrinin üzvləri bu günlərdə Türkiyənin Bursa şəhərində keçirilən "Bursa beynəlxalq orkestrlər festivalı"nda ölkəmizi layiqətlə təmsil edərək, tamaşaçıları Azərbaycan musiqisinin ecazkarlığı ilə sehirləyiblər. Yüksək bacarıq və məharət nümayiş edən hərbçilərimiz festivalda dördüncü olublar. Yarışlardan geriyə böyük sevinclə dönüblər.

Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin hərbi orkestrinin beynəlxalq festivalda qazandığı uğurlarla daha da yaxından tanış olmaq üçün yolumuzu bu möhtəşəm təhsil ocağından saldıq. Hərbi orkestrin rəisi - drijoru polkovnik-leytenant Fariz Məmmədzadə ilə görüşüb söhbət etdik, onunla yaxından tanış olub, səfər təəssüratlarını öyrəndik. Öyrəndik ki, zabit Fariz Məmmədzadə 1977-ci ildə Füzuli rayonunun Merdinli kəndində anadan olub. 1993-cü ildə Türkiyə Cümhuriyyətinin paytaxtı Ankara şəhərindəki Hərbi Musiqi Məktəbində oxuyub. Təhsilini başa vurduqdan sonra Müdafiə Nazirliyinin nümunəvi hərbi orkestrində xidmətə başlayıb.

Səfər təəssüratlarını bizimlə bölüşən zabit Fariz Məmmədzadə dedi ki, festivallar, müsabiqələr hansı ölkədə keçirilirsə keçirilsin, biz həmişə ölkəmizi bu yarışlarda layiqətlə təmsil etməyə çalışırıq. Çox şükürlər ki, çalışqanlığımız və bacarığımız sayəsində məqsədimizə çatırıq. Vətənimizə alnıaçıq və başıuca qayıdırıq. Uğurlarımız, zəfərlərimiz davamlı olur. Ona görə də dünənimiz də, bu günümüz də zəfərlərlə doludur. Yaxşı xatırlayıram, 2019-cu ildə Moskva şəhərində keçirilən "Spasskaya Başnya" hərbi musiqi festivalına bizi də dəvət etmişdilər. Festivala 14 xarici ölkənin hərbi orkestrləri qatılmışdı. 2019-cu il avqustun 17-dən sentyabrın 3-dək davam edən musiqi yarışmasında da fəal iştirak etdik. Biz bu beynəlxalq yarışlarda Azərbaycan musiqisini səsləndirdik və musiqilər, həmçinin ifa zamanı etdiyimiz nizami hərəkətlər tamaşaçıları heyran qoydu. Onlar fasilələr zamanı bizə yaxınlaşaraq ifa etdiyimiz musiqi nömrələri haqqında xoş sözlər dedilər. "Spasskaya Başnya" hərbi musiqi festivalında 14 komanda arasında dördüncü pilləyə çıxdıq. Düşünürəm ki, bu, təkcə biz hərbçilərin yox, həm də musiqimizin qələbəsi idi. Onu da deyim ki, bu yarışlarda hərbi orkestrimiz ilk dəfə idi iştirak edirdi. İndiyə qədər ölkəmiz bu yarışlarda təmsil olunmamışdı. İlk addımımız çox sevindirici oldu. Ümid edirəm ki, gələcək yarışlarda daha da böyük uğurlar qazanacağıq.

### *"Bursa şəhərinin küçələrində vüqarla addımlayırdıq..."*

Türkiyədə keçirilən musiqi yarışmasına da qələbə əzmi ilə yollandıq. Bu beynəlxalq festivalda 9 orkestr, 324 musiqiçi iştirak edirdi. Moldova Respublikasından gəlmiş hərbi orkestr, biz və yeddi orkestr də Türkiyə Respublikasının ayrı-ayrı şəhərlərini təmsil edirdi. Qürur hissləri keçirirdik ki, bu möhtəşəm festivalda ölkəmizi ilk dəfə təmsil etmək səadəti biz hərbçilərə nəsib olub. Deməli, Moskvada olduğu kimi, Türkiyədə də ilkə imzanı biz atacaqdıq. Bu, bizdən çox böyük məsuliyyət və bacarıq tələb edirdi.

Beynəlxalq festival 30 avqust 2021-ci ildə başladı. Həyecanla gözlədiyimiz açılış mərasimi çox təntənəli oldu. Əvvəlcə türk dünyasının böyük iftixarı Mustafa Kamal Atatürkün abidəsi önünə əklil qoyuldu. Türk "İstiqlal" marşı ifa olundu. Sonra həm iştirakçılarda, həm də tamaşaçılarda iftixar hissləri doğuran yürüş başlandı. Bir-birindən gözəl Azərbaycan musiqilərini ifa edə-edə Bursa şəhərinin küçələrindən keçirdik. Şəhər sakinləri bizə böyük hörmət və diqqət göstərirdilər. Bizə qalib ölkənin düşmən üzərində zəfər çalmış hərbçiləri kimi baxırdılar. Bundan qürur duymamaq, iftixar hissləri keçirməmək mümkün deyildi. Bu baxışlar altında biz Bursa şəhərinin küçələrində vüqarla addımlayırdıq. Doğrudan da qalib olmaq çox qürurvericidir. Bu gözəl anları bizə yaşadan şəhidlərimizə Allah rəhmət eləsin.

Zabit Fariz Məmmədzadə daha sonra dedi ki, alqışlardan hiss olunurdu ki, tamaşaçılar orkestrimizin ifasını maraqla dinləyir. Elə buna görə də başqa orkestrlərin çıxışına iyirmi beş dəqiqə, bizim orkestrin ifasına isə qırx beş dəqiqə vaxt ayırırdılar. Biz də bu imkandan istifadə edərək, tamaşaçılarımızın rəğbətini qazanmaq üçün bir-birindən maraqlı musiqi nömrələri səsləndirirdik. Türk qardaşlarımızın diqqət və qayğısını hər addımda hiss edirdik. Bütün bunlar çox qürurverici idi, yaddaqalan idi.



### *"Qazilərimizə də baş çəkdik"*

Festival günləri çox maraqlı və yaddaqalan oldu. Bu müddət ərzində dörd konsert verdik, bir yürüş keçirtdik. Konsertlərimizdən birini Türkiyənin qədim diyarı olan İznik şəhərində verdik. Mənim üçün bu konsert böyük önəm daşıyırdı. Bildiyiniz kimi, hərbi musiqi təhsilimi Türkiyədə almışam. İznik şəhərində keçirilən konsertə musiqinin sirlərini öyrədən müəllimlərim də tamaşaçı kimi qatılmışdılar. Sanki illərdən sonra müəllimlərim qarşısında hesabat verirdim. Deməli, bütün istedad və bacarığımı ortaya qoymalıydım. Belə də elədim. Çalışdım ki, müəllimlərimin etimadını doğruldum. Şükürlər olsun ki, konsert yüksək səviyyədə keçdi. İfa etdiyimiz Azərbaycan və türk musiqiləri iştirakçılar tərəfindən alqışlarla qarşılandı. Müəllimlərim bacarığımdan razı qaldılar. Demək olar ki, sınaqdan uğurla keçdim. Müəllimlərimin etimadını doğrultdum. Tamaşaçılar ifalarımızdan zövq aldılar. Festivalda yaddaqalan məqamlardan biri də o oldu ki, konsertlərimizin birində biz Bursa bələdiyyəsinin orkestri ilə "Hərb okulu" və "Sələmiyyə" marşını birlikdə ifa etdik. Düşünürəm ki, bu ifa festivalın zirvəsi oldu. Bu ifalar zamanı orkestrlərimiz də qardaşlaşdılar. Bundan zövq alan tamaşaçılar bizi ürəkdən alqışladılar.

Festival günlərində öyrəndik ki, "Yaşat" fondunun dəstəyi ilə Türkiyəyə göndərilmiş Vətən müharibəsinin iştirakçıları olmuş qazilərimiz Bursa şəhərindəki bərpa xəstəxanasında müalicə olunurlar. Konsertdən sonra vaxt ayırıb şəfa ocağına getdik, qazilərimizə baş çəkdik. Sağ olsun Bursa bələdiyyəsi bizi nəqliyyatla təmin etdi. Qazilərimizlə görüşüb sağlamlıqları ilə maraqlandıq. Burada 12 nəfər qazimiz müalicə olunurdu. Onlar gəlişimizdən məmnun qaldılar.

Festivalın bağlanışı da möhtəşəm keçdi. Biz bu beynəlxalq festivalın dördüncüsü olduq. Bursa bələdiyyəsinin sədri bizi qəbul etdi. İştirakçılara müxtəlif mükafatlar və diplomlar verildi. Festival həm iştirakçılar, həm də tamaşaçılar üçün yaddaqalan oldu. Bağlanış günü biz yeni yarışlar, yeni festivallar üçün dəvətlər aldıq. İstanbul, Bolu, Ədirnə və başqa şəhərlərin bələdiyyələri bizi qarşıdakı illərdə keçiriləcək beynəlxalq festivallara dəvət etdilər.

Əminlik hissi ilə deyə bilərik ki, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin hərbi orkestrinin üzvləri gələcəkdə iştirakçısı olacaqları bütün festivallarda Azərbaycan musiqisi ilə dünyanı fəth edəcək, ölkəmizi, ordumuzu layiqət və şərəflə təmsil edəcəklər.

**Vahid MƏHƏRRƏMOV**
**"Azərbaycan Ordusu"**




# Vətən Müharibəsi Qəhrəmanının xatirəsi anılıb




Biləsuvar rayonunun Aşağı Cürəli kəndindən olan Vətən Müharibəsi Qəhrəmanı şəhid kapitan Cavid Mahmudovun xatirəsinə həsr edilmiş anım mərasimi keçirilib, adına tikilən bulağın açılışı olub.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, mərasimdə iştirak edən rayon rəhbərliyi, Müdafiə Nazirliyinin əməkdaşları, kənd sakinləri, şəhidin döyüş yoldaşları, yaxınları qəhrəmanın məzarını ziyarət edib, üzərinə çiçəklər düzüblər.

Sonra iştirakçılar Aşağı Cürəlidə şəhidin xatirəsinə tikilən bulağın açılışını ediblər.

Əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin və respublikamızın ərazi bütövlüyünün qorunması, bərpası, eləcə də işğal altında olmuş tarixi torpaqlarımızın azad edilməsi uğrunda şəhidlik zirvəsinə ucalan Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Şəhidin xatirəsinə fəxri qarovul düzülüb, Hərbi orkestrin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Çıxışlarda şəhidin şərəfli həyat yolundan, Azərbaycan Silahlı Qüvvələrinin Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə işğalçı Ermənistan ordusu üzərində qazanılan Qələbənin tarixi əhəmiyyətindən danışılıb. Vurğulanıb ki, Cavid və onun kimi şəhid Vətən oğullarının xatirəsi xalqımızın qəlbində əbədi yaşayacaqdır.

Qeyd edək ki, Cavid Hilal oğlu Mahmudov 1989-cu il fevralın 6-da Biləsuvar rayonunun Aşağı Cürəli kəndində anadan olub. 2006-cı ildə O.Babayev adına Aşağı Cürəli kənd orta məktəbini, 2010-cu ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini, Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində "Zabit ixtisas kursu"nu və 2020-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyasını bitirib.

Kapitan hərbi rütbəsinədək yüksələn şəhid Cavid Mahmudov 44 günlük Vətən müharibəsində taborun şəxsi heyəti ilə birlikdə Füzuli rayonunun bir neçə yaşayış məntəqəsinin işğaldan azad edilməsi uğrunda döyüşlərdə peşəkar zabit kimi vəzifələrinin öhdəsindən layiqincə gəlib.



Düşmənə hərbi texnika və canlı qüvvə sarıdan xeyli itkilər verib. Cavid Mahmudov 2020-ci il oktyabrın 4-də Füzuli rayonu istiqamətində hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Sağlığında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" medalları ilə təltif olunub. Ölümündən sonra isə Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə Cavid Mahmudov "Vətən Müharibəsi Qəhrəmanı" adına, eləcə də "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medallarına layiq görülüb.



# Qəhrəmanlıqları tarixləşən oğullar...

Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində Vətən müharibəsində şəhid olan kapitan Cəfərli Həmid Kərim oğlunun həyat və döyüş yolundan bəhs edən "Şəhid kapitan Həmid Cəfərli" kitabının təqdimat mərasimi keçirildi.

Tədbir açıq elan olunduqdan sonra ümummilli lider Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü, müstəqilliyi uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Mərasim iştirakçıları Azərbaycan Respublikasının Dövlət Himnini oxudular.

Sonra həm 44 gün davam edən, ordumuz və xalqımız üçün uğurla başa çatan Vətən müharibəsinin anlarını özündə əks etdirən, həm də şəhid kapitan Həmid Cəfərlinin həyat və döyüş yolundan bəhs edən videoçarx nümayiş etdirildi.

Mərasimdə çıxış edən polkovnik Emin Səfərov şəhidlərimizin döyüş və həyat yolundan bəhs edən belə əhatəli və dəyərli kitabların yazılmasını yüksək qiymətləndirdi. Zabit dedi ki, Cəfərli Həmid Kərim oğlu 1990-cı il avqustun 1-də Bakı şəhərində dünyaya göz açıb. 1996-cı ildə Xətai rayonundakı 88 nömrəli orta məktəbin 1-ci sinfinə gedib. Səkkizinci sinfi bitirdikdən sonra hərbçi olmaq arzusu ilə 2004-cü ildə C.Naxçıvanski adına Hərbi Liseyə qəbul olub. Təhsil illərində çalışqanlığı ilə seçilib. 2007-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olub. 2011-ci ildə qoşun kəşfiyyatı ixtisası üzrə hərbi ali təhsilini başa vurub. 2011-2012-ci illərdə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində "Zabit ixtisasartırma kursu"nu bitirib. Elə həmin il "N" hərbi hissəsində taqım komandiri kimi xidmətə başlayıb. Sonrakı illər xidməti borcunu müxtəlif hərbi hissə və birləşmələrdə yerinə yetirib. Təcrübə və səriştəsini nəzərə alan komandanlıq 2019-cu ildə onu bölük komandiri təyin edib.

27 sentyabr 2020-ci ildə düşmən təxribatı nəticəsində başlanan Vətən müharibəsində ön sıralarda vuruşan zabit, Cəbrayıl rayonunun yaşayış məntəqələrinin düşməndən azad edilməsində böyük hünər və qəhrəmanlıq göstərib. Rayonun qəsbkarlardan azad olunan Nüzgar kəndinə üçrəngli zəfər bayrağını kapitan Həmid Cəfərli özü sancıb. Sonra komandanlığın əmri ilə Füzuli rayonu istiqamətində gedən döyüşlərə qatılan zabit 5 oktyabr 2020-ci ildə - Vətən müharibəsinin 8-ci günü Pirəhmədli kəndi ətrafında şəhidlik zirvəsinə yüksəlib.

Kapitan Həmid Cəfərli Vətən müharibəsində göstərdiyi cəsarət və igidliyə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "İgidliyə görə", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medallarına layiq görülüb.

"Şəhid kapitan Həmid Cəfərli" kitabının müəllifi Hicran Hüseynova çıxışında torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə şəhid olan oğullarımız haqqında kitab yazmaq, onların qəhrəmanlığını tarixləşdirmək və gələcək nəsillərə çatdırmağın ziyalıların mənəvi borcu olduğunu bildirdi. "Çalışdım ki, kitabımda Vətənə layiqli övlad olan kapitan Həmid Cəfərlinin həyat və döyüş yolunu dolğunluğu ilə oxuculara çatdırım. Qoy gələcək nəsillər igidliyi, qəhrəmanlığı kapitan Həmid Cəfərli kimi cəsur oğullardan öyrənsinlər, onlar kimi Vətən torpaqlarını həmişə göz bəbəkləri kimi qorusunlar. Qəhrəmanlıq ənənələrinin davam etdirilməsi məqsədilə, cəsur oğulların döyüş yolları, qəhrəmanlıqları mütləq tarixləşdirilməlidir".



Hicran Hüseynova çıxışını bitirdikdən sonra "Şəhid kapitan Həmid Cəfərli" kitabını ali hərbi məktəbin rəhbərliyinə təqdim etdi.

"Vətən Müharibəsi Qəhrəmanı" polkovnik Nizami Məvlanov, Birinci Qarabağ müharibəsinin veteranı Elmar Hüseynov, zabit yoldaşları Murad Şirinov, Mahir İbrahimov, kursant yoldaşı Rüfət Cəfərli, Azərbaycan Vətən Müharibəsi Veteranları İctimai Birliyinin sədri Füzuli Rzaquliyev, şəhidin riyaziyyat müəllimi olmuş Şölə Qasımova və başqaları çıxış edərək şəhid Həmid Cəfərli haqqında xatirələrini bölüşdülər. Kapitan Həmid Cəfərliyə həsr olunmuş kitabın gələcək nəsillər üçün dəyərli bir vəsait olacağı vurğulandı.

Şəhid Həmid Cəfərlinin anası Zenfurə Cəfərli çıxış edərək oğlunun xatirəsini əziz tutduqlarına görə dövlət başçısına, Müdafiə Nazirliyinin rəhbərliyinə dərin minnətdarlığını bildirdi. Qeyd etdi ki, Həmidin dörd övladını - Cabbarı, Hüseyni, Aynurəni və Zəhranı onun adına, qəhrəmanlığına layiq böyütməyə çalışacağıq.

Qəhrəmanlığı tarixləşməyə layiq olan şəhid Həmid Cəfərlinin hərbi "forma" geyinmiş oğulları Hüseyn və Cabbar atalarının igidliyinə həsr olunan şeirlər söylədilər.

Mərasimin bədii hissəsində Bakı şəhər Mədəniyyət Baş İdarəsinin müğənni və solistləri qəhrəmanlığı və vətənpərvərliyi tərənnüm edən mahnılar ifa etdilər.

**Vahid MƏHƏRRƏMOV**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

**(İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)**

**Mövzu:** Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunun zəfər yürüşü.

**Suallar:**

**1. Qələbəyə aparan liderlik keyfiyyətləri.**

**2. Diplomatik mübarizənin şanlı zəfər yürüşündə rolu.**

**3. Ordu quruculuğundakı nailiyyətlərin məntiqi nəticəsi.**

**4. Azərbaycanın Vətən müharibəsindəki qələbəsinin tarixi-siyasi əhəmiyyəti.**

## Qələbəyə aparan liderlik keyfiyyətləri

Xalqların dünyada nüfuzunu artıran yalnız onların maddi-mədəni sərvətləri deyil, həm də mütərəqqi ideyaları ilə tarixi proseslərə mühüm təsir göstərən şəxsiyyətləridir. Onların seçdiyi yol milli inkişaf strategiyasının əsasında dayanır və təmsil etdikləri ölkələrin dünya birliyində özünə layiqli yer tutmasını təmin edir. Belə şəxsiyyətlərdən biri müstəqil Azərbaycan dövlətinin banisi, ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi kursu layiqincə davam etdirən Prezident cənab İlham Əliyevdir.

Onun məqsədyönlü və qətiyyətli siyasəti nəticəsində 18 il ərzində Azərbaycan dövlətinin bütün sahələrində əldə etdiyi uğurlar "Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm", - deyən ümummilli lider Heydər Əliyev dühasının müdrikliyini və uzaqgörənliyini sübut edir.

Hər bir xalqın genetik yaddaşını möhkəmləndirmək, mənəvi irsini və əxlaqi dəyərlərini qoruyub saxlayaraq gələcək nəsillərə ötürmək kimi çətin missiyanın yerinə yetirilməsi uzaqgörən liderlərin fəaliyyəti ilə sıx şəkildə bağlıdır. Onlar həmişə ali məqsədlər uğrunda mübarizənin önündə gedərək, göstərdikləri tarixi fəaliyyətlə rəhbərlik etdikləri dövlətlərin mütərəqqi yolla inkişafına nail olurlar. Bu baxımdan Prezident cənab İlham Əliyev xalqımızın milli-mənəvi bütövlüyünün təmin olunmasında özünəməxsus yer tutan milli şüurun inkişafını daim diqqət mərkəzində saxlayır ki, bu da təsadüfi deyildir. Çünki milli şüur hər bir insanın mənsub olduğu xalqa bağlılıq hisslərini möhkəmləndirməklə milli özünüdərketmədə ciddi rol oynayır. Prezident cənab İlham Əliyev xalqımızın mənəvi tərəqqisinə, milli özünüdərkin və qürur hissinin güclənməsinə Azərbaycanın inkişaf strategiyasının tərkib hissəsi kimi yanaşır.

Prezident cənab İlham Əliyev bütün fəaliyyətini Azərbaycanın inkişafına və möhkəmlənməsinə həsr edən lider kimi xalqımızın böyük rəğbətini qazanıb. Onun dünyada gedən geosiyasi və geoiqtisadi proseslərə müdrik liderə məxsus böyük uzaqgörənliklə yanaşması apardığı siyasətin əsas cəhətlərindən biridir. Azərbaycan Prezidenti sübut edir ki, liderin malik olduğu nüfuz özündə şəxsi keyfiyyətlərin, siyasi dəyərlərin və prinsiplərin vəhdətini birləşdirir. Dövlət başçısının xalqın qəhrəmanı, hərbi sərkərdəsi olması onun intellektual potensialından və səriştəli idarəetmə bacarığından irəli gəlir.

Prezident İlham Əliyevin səmərəli iş qabiliyyəti, fəallıq və təşəbbüskarlıq kimi keyfiyyətlərə malik olması, ortaya çıxan problemlərin obyektiv və subyektiv səbəblərini dərindən, hərtərəfli araşdırmasında, ölkənin inkişafını nəzərdə tutan proqramlar hazırlayaraq həyata keçirməsində mühüm əhəmiyyət daşıyır. Ölkəmizin dövlət müstəqilliyinin möhkəmlənməsi sahəsində Azərbaycan Prezidentinin apardığı milli inkişaf siyasəti intellektual düşüncəyə əsaslanır. Onun qəbul etdiyi qərarların, yerinə yetirdiyi vəzifələrin milli və qlobal əhəmiyyəti həm yerli, həm də beynəlxalq ictimai rəydə yüksək qiymətləndirilir.

## Diplomatik mübarizənin şanlı zəfər yürüşündə rolu

Vətən müharibəsində qələbənin əldə olunması Prezident cənab İlham Əliyevin həyata keçirdiyi uğurlu xarici siyasət və "Dağlıq Qarabağ" münaqişəsinin həlli istiqamətində apardığı ardıcıl, qətiyyətli diplomatik mübarizə ilə sıx şəkildə bağlıdır. Ötən illər ərzində Azərbaycanın dövlət müstəqilliyinin möhkəmlənməsi və milli maraqlarının təmin olunması sahəsində Prezident cənab İlham Əliyevin həyata keçirdiyi xarici siyasət kursu ölkəmizə beynəlxalq aləmdə çoxlu dost dövlətlər və etibarlı tərəfdaşlar qazandırıb.

Azərbaycanın Cənubi Qafqazın aparıcı dövləti kimi dünya birliyində mövqeyi daha da möhkəmlənib. Digər ölkələrin suverenliyinə, ərazi bütövlüyünə və daxili işlərinə qarışmamaq Prezident cənab İlham Əliyevin siyasətinin əsas prinsiplərindən birini təşkil edir. Bu siyasətin nəticəsində ölkəmizlə dünya dövlətləri arasında qarşılıqlı faydalı və bərabərhüquqlu əməkdaşlıq möhkəmlənir, Azərbaycan vətəndaşlarının firavan və təhlükəsiz şəraitdə yaşayışı təmin olunur.

Prezident cənab İlham Əliyevin apardığı xarici siyasət ölkəmizi dünya dövlətləri ilə ikitərəfli və çoxtərəfli münasibətlərdə vacib tərəfdaş kimi tanıdır, onun BMT, Avropa Birliyi, ATƏT, MDB, İƏT, Qoşulmama Hərəkatı kimi təşkilatlarla əlaqələrini möhkəmləndirir. 2011-ci il oktyabrın 24-də 155 dövlətin dəstəyi ilə Azərbaycanın BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi xalqımızın tarixində mühüm hadisədir. Bununla yanaşı, nüfuzlu beynəlxalq tədbirlərə ev sahibliyi etməsi Azərbaycanın uğurlu diplomatiyasının göstəricisidir. Milli maraqlara əsaslanan xarici siyasətin aparılması beynəlxalq ictimaiyyətdə Azərbaycana böyük inam və etimad qazandırır.

Ermənistan-Azərbaycan münaqişəsinin həllinə nail olmaq üçün ötən illər ərzində fəal və çevik xarici siyasət həyata keçirilib. "Dağlıq Qarabağ"ın tarixi ilə bağlı dünya ictimaiyyətinə dolğun məlumatlar çatdırılıb, Ermənistanın yalançı təbliğatı ildən-ilə fiaskoya uğrayıb. Prezident cənab İlham Əliyev "Dağlıq Qarabağ" münaqişəsinin beynəlxalq hüquqi normalar çərçivəsində nizamlanmasına çalışıb, Azərbaycanın prinsipial mövqeyini dəfələrlə BMT, ATƏT, NATO, Avropa Şurası, Avropa İttifaqı, İslam Əməkdaşlıq Təşkilatı, Müstəqil Dövlətlər Birliyi kimi beynəlxalq və regional təşkilatların tribunalarından səsləndirib, Ermənistanı işğalçılıq siyasətindən əl çəkməyə, dünya dövlətlərini isə problemin aradan qaldırılması üçün fəallıq göstərməyə çağırıb.

2020-ci il sentyabrın 27-də Ermənistanın Azərbaycana qarşı hərbi təxribatı nəticəsində başlayan müharibədə xalqımız Prezident cənab İlham Əliyevin müzəffər komandan kimi hərbi sərkərdəlik keyfiyyətlərinin, prinsipial və qətiyyətli mövqeyinin, ən ekstremal şəraitdə belə uğurlu diplomatiya yürütdüyünün bir daha şahidi oldu.

## Ordu quruculuğundakı nailiyyətlərin məntiqi nəticəsi

Azərbaycan Ordusunun maddi-texniki bazasının gücləndirilməsinin, zabit-əsgər heyətinin yüksək hərbi hazırlığa və vətənpərvərlik əhvali-ruhiyyəsinə malik olmasının nəticələri özünü Vətən müharibəsində parlaq şəkildə göstərdi. Şanlı ordumuz Azərbaycanın işğal olunmuş ərazilərini erməni qəsbkarlarından azad etdi. Sübut olundu ki, Azərbaycan müasir tələblərə tam cavab verən, yüksək mənəvi-psixoloji hazırlıqlı, istənilən döyüş tapşırığını ən yüksək səviyyədə yerinə yetirməyə qadir olan Silahlı Qüvvələrə malikdir.

Müharibə dövründə xalqımız Prezident cənab İlham Əliyevin apardığı siyasətlə bağlı həmrəylik nümayiş etdirdi. Doğma vətənini sevən hər bir azərbaycanlı həmrəylik göstərərək torpaqlarımızın Ermənistanın işğalından azad olunması üçün Prezident cənab İlham Əliyevin apardığı siyasəti dəstəklədi. Vətən müharibəsindən əvvəl də ermənilərin hərbi təxribatlarının qarşısının alınması üçün Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətlə bağlı xalqımız dəfələrlə həmrəylik nümayiş etdirib. Buna nümunə olaraq 2016-cı ilin Aprel döyüşlərini göstərmək olar. Azərbaycanın düşmənlə təmas xəttində yerləşən mövqeləri və yaşayış məntəqələri Ermənistan silahlı qüvvələrinin intensiv atəşinə məruz qalanda Azərbaycan Ordusu əks-hücum əməliyyatı ilə düşmənin təxribatlarının qarşısını aldı. Həmin döyüşlərdə mühüm nailiyyətlər əldə olundu, bir neçə yüksəklik və müəyyən ərazilər Ermənistanın işğalından azad olundu, əldə edilmiş qələbə vətəndaş birliyini daha da möhkəmləndirdi. Əvvəllər ermənilər dünyaya ordularının yenilməz, güclü olması haqqında yalan məlumat yayırdılar. Lakin Vətən müharibəsindəki döyüşlər ermənilərin bu cür iddialarının cəfəngiyat olduğunu sübut etdi və qısa müddət ərzində Azərbaycan Ordusu Ermənistan silahlı qüvvələrini məhv etməklə öz qüdrətini bütün dünyaya nümayiş etdirdi. 44 günlük müharibə dövründə dünyanın nüfuzlu telekanallarına verdiyi müsahibələrində Prezident cənab İlham Əliyevin Azərbaycanla bağlı həqiqətləri beynəlxalq aləmin diqqətinə yüksək diplomatik peşəkarlıqla çatdırması dövlətimizin informasiya müharibəsində də qələbəsini təmin etdi.

## Azərbaycanın Vətən müharibəsindəki qələbəsinin tarixi-siyasi əhəmiyyət

Ermənistan silahlı qüvvələrinin atəşkəs rejimini kobud şəkildə pozması nəticəsində baş verən müharibədə Azərbaycan Ordusu düşmənin hərbi qüvvələrini darmadağın etməklə həm də onun işğalçılıq siyasətini iflasa uğratdı. Bu qələbə münasibətilə Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev demişdir: "Azərbaycan xalqı bu günü 30 ilə yaxın müddət ərzində gözləyirdi, 30 ilə yaxın müddət ərzində Ali Baş Komandanın əmrini gözləyirdi. Mən dəfələrlə Azərbaycan xalqına müraciət edərkən deyirdim ki, biz daha güclü olmalıyıq və nəyi nə vaxt, necə etmək lazımdır, biz bilirik. Həyat göstərdi ki, vaxtında addımlar atdıq, bütün gücümüzü səfərbər edərək bir dəmir yumruq yaradıb düşmənin başını əzdik. Müharibə dövründə mən deyirdim ki, bizim dəmir yumruğumuz həm birliyimizi, həm də gücümüzü təcəssüm etdirir. Bu dəmir yumruq düşmənin belini qırdı, düşmənin başını əzdi. Bu gün biz qəhrəman xalq kimi bu bayramı qeyd edirik. Azərbaycanın müzəffər ordusu öz tarixi missiyasını yerinə yetirdi, Ermənistanı məğlub etdi. Ermənistan ordusu demək olar ki, yoxdur, məhv edilib. Bundan sonra əgər erməni faşizmi bir daha baş qaldırsa, nəticə eyni olacaq. Yenə Azərbaycanın dəmir yumruğu onların belini qıracaq".

Prezident cənab İlham Əliyevə olan yüksək inamın nəticəsi idi ki, xalqımızın vətənpərvər övladları onun çağırışına səs verərək torpaqlarımızın işğaldan azad edilməsi uğrunda səfərbər olub silaha sarıldılar. Rəşadətli Azərbaycan Ordusu "Dəmir yumruq" əməliyyatında böyük şücaət göstərərək xalqımızın tarixinə parlaq səhifələr yazdı. Vətən müharibəsinin ilk günlərindən başlayaraq Ali Baş Komandan cənab İlham Əliyev əsgərlərimizin qəhrəmanlığı ilə fəxr etdiyini, qürur duyduğunu bildirib: "Bu gün bizim əldə etdiyimiz qələbə və apardığımız hərbi əməliyyatlar həm texniki imkanlar baxımından, eyni zamanda operativ addımlar, əməliyyatların hazırlanması və icra edilməsi baxımından bütün dünyada öyrənilir. Bu, yeni nəsil müharibə üsuludur, hansı ki, planlaşdırma, texniki təchizat, texnologiyaların tətbiqi, əməliyyatların düzgün planlaşdırılması və həyata keçirilməsi, hərbçilərimizin döyüş qabiliyyəti və mənəvi ruh birləşir, vəhdət təşkil edir. Ancaq mən bunu artıq bir neçə dəfə demişəm, bu qələbəni qazanan bizim texniki vasitələr yox, əsgər və zabitlərimizdir. Onlar torpağımızı düşməndən qarış-qarış azad edə-edə bu Qələbəni, bu Zəfəri xalqımıza nəsib etdilər. Ona görə bu qələbənin birinci qəhrəmanı Azərbaycan əsgəridir, Azərbaycan zabitidir və hər kəs bunu bilməlidir".

Azərbaycan dövləti erməni işğalçılarını torpaqlarımızdan qovmaqla bölgədə yeni reallıq yaratdı və BMT Təhlükəsizlik Şurasının 27 il ərzində kağız üzərində qalan məlum dörd qətnaməsinin tələblərini yerinə yetirdi. Şanlı qələbədən sonra Prezident cənab İlham Əliyevin dediyi kimi, "Bizim ölkəmiz üçün yeni dövr başlayır. Yeni quruculuq dövrü, inkişaf dövrü, azad edilmiş ərazilərimizin bərpası dövrü. Mən tam əminəm ki, Azərbaycan xalqı bu dövrdə də birlik, həmrəylik göstərəcək, güclü iradə göstərəcək. Azərbaycan xalqı yenə də birləşərək dağıdılmış bu şəhərləri, kəndləri bərpa etmək üçün əlindən gələni edəcəkdir. Biz bundan sonra böyük və qürurlu xalq kimi yaşayacağıq. Beynəlxalq müstəvidə öz sözümüzü demişik, bölgədə öz sözümüzü demişik. İstədiyimizə nail olmuşuq və əminəm ki, bundan sonra bizim xalqımızı təhlükəsiz və xoşbəxt həyat gözləyir". Vətən müharibəsində qazanılmış möhtəşəm qələbə Ali Baş Komandan cənab İlham Əliyevin sərkərdəlik məharəti və Azərbaycan Ordusunun igid, mərd, qorxubilməz döyüşçülərinin qəhrəmanlığı nəticəsində reallaşdı.

Dekabrın 10-da Bakının Azadlıq meydanında Vətən müharibəsində qələbəyə həsr olunmuş Zəfər paradı Azərbaycan Ordusunun gücünü və qüdrətini bütün dünyaya göstərdi. İşğal olunmuş torpaqlarda dalğalanan qələbə bayrağımız da bu möhtəşəm tədbirə gətirildi, 3000 nəfərdən artıq şəxsi heyət, 150-dək hərbi texnika, o cümlədən silahlanmaya yeni qəbul edilmiş müasir hərbi texnika, raket və artilleriya qurğuları, hava hücumundan müdafiə sistemləri, eləcə də hərbi gəmi və katerlər nümayiş etdirildi. Paradda, həmçinin Vətən müharibəsi zamanı Azərbaycan Ordusunun darmadağın etdiyi, düşməndən ələ keçirdiyi hərbi qənimətlərin bir qismi də nümayiş etdirildi.

Vətən müharibəsindəki qələbə ilə Azərbaycan bütün dünyaya öz gücünü və haqq-ədalət uğrunda qətiyyətli mübarizəsini nümayiş etdirdi. Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin müdrikliyi, Silahlı Qüvvələrin gücü, cəmiyyətdəki vətəndaş həmrəyliyi nəticəsində əldə olunmuş möhtəşəm qələbə ilə Azərbaycanın ərazi bütövlüyünü bərpa edən lider kimi adını əbədi olaraq tarixə yazdırdı, Azərbaycan xalqının qəhrəmanlıq salnaməsini yaratdı və 44 günlük Vətən müharibəsinin əsl qəhrəmanına çevrildi.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

## “Cənubi Qafqazda sabitliyin təmin olunması bölgənin bütün xalqları üçün çox vacibdir”

*Cənubi Qafqaz bir çox cəhətdən, eləcə də neft və qaz boru kəmərləri baxımından çox önəmlidir. Bu səbəbdən regionda sülhün və sabitliyin təmin olunması təkcə bizim üçün deyil, eyni zamanda, bütün bölgə xalqları üçün böyük önəm daşıyır.*

AZƏRTAC xəbər verir ki, bu sözləri jurnalistlərə açıqlamasında Türkiyənin Milli müdafiə naziri Hulusi Akar deyib.

O, Azərbaycan, Türkiyə və Gürcüstanın Müdafiə nazirlərinin oktyabrın 5-də Gürcüstanda keçirilən görüşünü mövcud münasibətlərin müzakirəsi və perspektivlərin dəyərləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb.

Hulusi Akar bildirib ki, görüşdə bölgədə sülhün və sabitliyin qorunması məsələləri də diqqət mərkəzində olub. Türkiyə, Gürcüstan və Azərbaycan arasında inkişaf edən, daim dərinləşən və genişlənən münasibətlər qarşıdakı illərdə bütün sahələrdə daha da möhkəmlənəcək.

"Qafqaz kimi önəmli bölgənin vacib ölkəsi olan Gürcüstanda Azərbaycan ilə birlikdə keçirdiyimiz təlimlər müdafiə qüvvələrimiz üçün faydalıdır. Bu, təkcə bizim ölkələrimiz üçün deyil, eyni zamanda, bölgədəki digər ölkələr üçün də örnək ola bilər", - deyə Hulusi Akar vurğulayıb.

## Şəhid Kənan Dadaşzadənin anım mərasimi keçirildi



2020-ci il sentyabrın 27-də Müzəffər Ali Baş Komandanın döyüş əmri ilə ordumuz əks-hücüm əməliyyatlarına başladı. Uzun illər əzəli torpaqlarımızın həsrəti ilə yaşayan xalqımız bu günü səbirsizliklə gözləyirdi. Minlərlə igid həmvətənlərimiz haqq savaşına qatılmaq arzusu ilə könüllü olaraq ordu sıralarına yollandı. 44 gün davam edən Vətən müharibəsi düşmənin darmadağın edilməsi və ordumuzun parlaq qələbəsi ilə sona çatdı. Tariximizdə əbədi qalacaq Zəfər səhifəsini qızıl hərflərlə yazanlardan biri də şəhid Kənan Elman oğlu Dadaşzadədir.

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzində torpaqlarımızın erməni işğalından azad olunması uğrunda canlarını fəda edən şəhidlərimizin ruhlarına ehtiram məqsədilə keçirilən "Şəhidlər ölməz, Vətən bölünməz" tədbirlər silsiləsindən şəhid Kənan Dadaşzadənin xatirəsinə həsr olunan anım mərasimi keçirildi.

Mərasimdə Müdafiə nazirliyinin və ictimaiyyətin nümayəndələri, şəhidin ailə üzvləri, dostları, döyüş yoldaşları iştirak edirdilər.

Əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyünün bərpası uğrunda şəhid olanların əziz xatirəsi bir dəqiqəlik sükutla yad olundu. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin rəisi polkovnik-leytenant İlkin Qayıbov dedi ki, vətənpərvərlik tək hərbi xidmətdə olmaq deyil, həm də Vətənə sadiq olmaq, onu sevmək və Vətən torpaqlarına bağlı olmaqdır. Vətən üçün hər şeyə hazır olmaqdır, vətənpərvərlik. Polad, Mübariz, Fərid və Kənan kimi oğullarımızı daim qəlbimizdə yaşadacaq, onlara sonsuz hörmət bəsləyəcəyik. Allah bütün şəhidlərimizə rəhmət eləsin.

Mərasim iştirakçıları şəhidin şərəfli döyüş və ömür yolundan bəhs edən videoçarxı izlədilər. Əsgər Kənan Dadaşzadə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək, vəzifə borcunu şərəflə yerinə yetirdiyinə, şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən, "Vətən uğrunda" və "Laçının azad olunmasına görə" medalları ilə təltif edilib.

Şəhidin atası Elman Dadaşov oğlunun qəlbində həmişə böyük Vətən sevgisi olduğunu vurğuladı. "Mən ona uşaqlıqdan elə tərbiyə verirdim ki, o, böyüdükdən sonra da böyük-kiçik yeri biləni, elinə, yurduna layiqli bir vətəndaş olsun. Vətənə borcunu qaytarmaq vaxtı gəldikdə isə çox sevinmişdi. Əsgərlikdə olduğu müddətdə telefonla əlaqə saxlayanda daim ordumuzun gücündən danışar, hərbi xidmətdə olduğundan qürur duyduğunu söyləyərdi. Mən başda övladım olmaqla, bütün şəhidlərimizlə fəxr edirəm və onlara Allahdan rəhmət diləyirəm. Burada olduğunuz üçün də, övladımın xatirəsini əziz tutduğunuz üçün də sizə təşəkkür edirəm".

Elman Dadaşov şəhid atası olaraq Ali Baş Komandanımıza və Müdafiə Nazirliyinin rəhbərliyinə göstərdikləri diqqət və qayğıya görə minnətdarlığını bildirdi.

Sonda Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin solistlərinin ifasında vətənpərvərliyi tərənnüm edən musiqi nömrələri səsləndirildi. Xatirə şəkilləri çəkdirildi.

**Leytenant**
**İbrahim MƏMMƏDBƏYOV**
**"Azərbaycan Ordusu"**

## Belarusun Slutsk şəhərində Azərbaycanın Milli Qəhrəmanı Anatoliy Davidoviçin xatirəsi anılıb





Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Vətən müharibəsinin birinci ildönümünün qeyd olunması ilə əlaqədar Belarusun Slutsk şəhərində Birinci Qarabağ müharibəsinin iştirakçısı, Azərbaycanın Milli Qəhrəmanı mayor Anatoliy Davidoviçin xatirəsi anılıb.

Azərbaycanın Belarusdakı fövqəladə və səlahiyyətli səfiri Ülvi Baxşəliyev, Silahlı Qüvvələrin Belarusdakı hərbi attaşesi polkovnik Elşən Rəhimov və səfirliyin nümayəndə heyəti 1992-ci ilin iyununda Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə həlak olmuş Anatoliy Davidoviçin məzarını ziyarət edib, səfirlik adından şəhidin məzarı önünə əklil qoyulub və xatirəsi ehtiramla yad edilib.

Səfirliyin əməkdaşları Milli Qəhrəmanın Slutskda yaşayan anası Kima Davidoviçi də ziyarət ediblər. Görüşdə qəhrəmanın şücaəti, gənclik və xidmət illəri xatırlanıb. Vurğulanıb ki, 1992-ci ilin iyunun 13-də döyüşlərin birində qəhrəmancasına həlak olan mayor A.Davidoviçin şücaəti Azərbaycan və Belarus xalqları arasında dostluq və qardaşlıq münasibətlərini daha da möhkəmləndirib, xatirəsi isə hər iki ölkədə daim ehtiramla yad olunur.

Kima Andreyevna da öz növbəsində oğlunun xatirəsinə olan ehtirama və özünə göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidentinə, Azərbaycan dövlətinə, səfirliyin və ölkəmizin Belarusdakı hərbi attaşelik aparatının əməkdaşlarına minnətdarlığını bildirib.

Səfər çərçivəsində Ü.Baxşəliyev Slutsk şəhərinin rəhbəri Andrey Yankeviçlə də görüşüb.

# Xəbərlər: hadisələr, faktlar

## Türkiyənin təhlükəsizlik qüvvələri İraqın şimalında terrorçulara sarsıdıcı zərbə vurub



Türkiyə Silahlı Qüvvələrinin və Milli Təhlükəsizlik Təşkilatının (MİT) İraqın şimalında həyata keçirdiyi antiterror əməliyyatı nəticəsində PKK terror təşkilatının daha 4 üzvü məhv edilib.

Milli Müdafiə Nazirliyinin bununla bağlı yaydığı məlumatda əməliyyatın hərbi aviasiya vasitələri tərəfindən həyata keçirildiyi bildirilib.

Anadolu agentliyi isə İraqın şimalındakı Qara bölgəsində həyata keçirilən antiterror əməliyyatı nəticəsində Özcan Yıldız adlı təhlükəli terrorçunun məhv edilməsi barədə MİT-ə istinadla məlumat yayıb. 2012-ci ildə Hakkari vilayətinin Yüksekova rayonunun Dağlıca bölgəsində səkkiz hərbçinin həlak olması ilə nəticələnən terror aktını həyata keçirən Özcan Yıldız Türkiyənin təhlükəsizlik qüvvələri tərəfindən axtarışda idi.

## ABŞ öz nüvə başlıqlarının sayını açıqlayıb



2020-ci ilin sentyabr ayına olan məlumata görə, ABŞ 3 min 750 nüvə başlığına malikdir.

Amerika mətbuatı xəbər verir ki, bu barədə Birləşmiş Ştatların dövlət departamenti məlumat yayıb.

Birləşmiş Ştatlar 2017-ci ilin sentyabr ayında dərc olunan məlumatları yeniləmək üçün nüvə ehtiyatları haqqında bu yaxınlarda məxfilikdən çıxarılan son məlumatları açıqlayıb. Belə ki, ABŞ-ın nüvə silahı ehtiyatları 1967-ci ildən bəri təxminən 88 faiz ixtisar olunaraq 31 min 255 nüvə başlığına, Berlin divarının çökdüyü 1989-cu ildə isə daha 83 faiz ixtisar edilərək 22 min 217 başlığadək azaldılıb.

ABŞ 1994-cü ildən 2020-ci ilə qədər ümumilikdə 11 min 683 nüvə başlığını, o cümlədən 2017-ci ildən bu yana 711 nüvə başlığını məhv edib. Eyni zamanda, təxminən 2 min döyüş başlığı istifadədən çıxarılıb. Həmçinin 1991-ci il sentyabrın 30-dan bəri qeyri-strateji taktiki nüvə başlıqlarının sayı 90 faizdən çox ixtisar olunub.

Qeyd edək ki, soyuq müharibə dövründə ABŞ çoxsaylı və çeşidli taktiki nüvə silahına sahib idi. Dövlət Departamentinin iddiasına görə, son 30 ildə Birləşmiş Ştatlar həmin silahların demək olar ki, hamısını silahlanmadan çıxarıb və məhv edib. Bununla yanaşı, qeyri-strateji nüvə silahlarının ABŞ və Rusiya arasında Strateji hücum silahlarının azaldılması və məhdudlaşdırılması müqaviləsinə daxil olmadığı bildirilir.

## Əfqanıstanda dini məktəbdə partlayış nəticəsində yeddi nəfər həlak olub



Əfqanıstanın şərqində yerləşən Host əyalətindəki dini məktəbdə baş verən partlayış nəticəsində ən azı yeddi nəfər həlak olub, 15 nəfər isə yaralanıb.

Əfqanıstanın müvəqqəti hökumətinin Daxili İşlər Nazirliyinin məlumatına görə, məktəbdə əl qumbarası partlayıb.

Bir neçə gün bundan əvvəl isə Kabildə yerləşən İdgah məscidində törədilmiş partlayış nəticəsində 12 nəfər həlak olub. Həmin partlayışın məsuliyyətini İŞİD qruplaşması üzərinə götürüb. Hadisədən sonra üç nəferin saxlanıldığı bildirilir.

Xatırladaq ki, son vaxtlar "Taliban" hərəkatı paytaxt Kabildə və bir neçə əyalətdə İŞİD silahlılarına qarşı əməliyyatlar keçirib.

**AZƏRTAC-ın materialları əsasında**

*Medallı igidlərimiz*

# "Qarabağımız azaddır"

Tariximizin səhifələrinə nəzər salsaq görərik ki, neçə-neçə cəsur oğullarımız qorxu bilmədən düşmən üzərinə atılıb, əcdadlarımızdan bizlərə əmanət olan Vətən torpaqlarını göz bəbəyi kimi qoruyublar. Bu amil bir daha onu göstərir ki, Azərbaycan xalqı qəhrəman xalqdır. Qəhrəmanlığımızı qoruyub saxlayan isə hər birimizin qəlbində olan vətənpərvərlik hissidir. Vətənpərvərlik hər bir insanda fədakarlıq, qəhrəmanlıq və məğlubedilməzlik hissi formalaşdıraraq, apardığı mübarizədə onun inamını gücləndirir. Tarix boyu xalqımız öz Vətənini göz bəbəyi kimi qorumağa hər an hazır olan igid oğullar böyüdüb.

2020-ci il sentyabrın 27-də başlanan və 44 gün davam edən Vətən müharibəsi zamanı canlarını ölkəmizin ərazi bütövlüyü uğrunda fəda edən qəhrəman oğullarımız bunu bir daha sübut etdilər. Belə oğullardan biri də tibb məntəqəsinin rəisi gizir Nicat Süleymanlıdır. Beyləqan rayonunda dünyaya göz açan Nicat 2010-cu ildə Kimya-biologiya təmayüllü Respublika liseyini bitirib. Vaxtı ilə düşmənlə təmas xəttində olan hərbi hissələrdən birində müddətli həqiqi hərbi xidmətdə olan Nicat hərbçi olmaq qərarına gəlir. Əsgəri xidmətini başa vurduqdan sonra Nicat Süleymanlı Azərbaycan Tibb Universitetinin Hərbi Tibb Fakültəsində Hərbi feldşer işi ixtisası üzrə təhsil alır. 2015-ci ildə tibb fakültəsini müvəffəqiyyətlə bitirərək, gizir hərbi rütbəsi ilə xidmətə başlayıb. Vətən müharibəsində Füzuli, daha sonra Cəbrayıl və Xocavənd rayonlarının azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Gizir Nicat Süleymanlı döyüş meydanından yaralı zabit və əsgərləri təxliyə edərək onlara ilkin tibbi yardım göstərib. Bilik bə bacarığı sayəsində neçə-neçə döyüşçümüzün həyatını xilas edib. Gizir söhbət zamanı bildirdi ki, illərdir bu günlərin həsrəti ilə yaşayıb.



- Döyüş əmri verildiyi an sevincimin həddi-hüdudu yox idi. Mən də hər bir azərbaycanlı kimi torpaqlarımızın azadlığı uğrunda başlayacaq döyüşləri səbirsizliklə gözləyirdim. Döyüşlər başladığı andan düşməndən şəhidlərimizin qisasını alır, qəsbkarları doğma torpaqlarımızdan qovub çıxarırdıq. Yağıların illərlə işğal etdiyi əzəli yurdlarımızı rəşadətli Azərbaycan Ordusu Ali Baş Komandanımızın rəhbərliyi altında 44 gün ərzində tamamilə azad etdi. Döyüşçülərimizin peşəkarlığı nəticəsində düşmən tamamilə məhv edildi. İşğalçıların döyüş meydanından qaçmaqdan başqa çıxış yolu qalmadı. Şükürlər olsun ki, biz müzəffər Ali Baş Komandanımızın rəhbərliyi altında doğma torpaqlarımızı qəsbkarladan azad etdik. Artıq Qarabağımız azaddır, - dedi gizir Süleymanlı.

Daha sonra döyüşçü yoldaşlarından söz açaraq dedi ki, bölmə komandiri mayor Elçin Allahverdiyev, mayor Orxan Şirinov, mayor Əli Əsədov, baş leytenant Şaməddin Mehmanlı, kapitan Elçin Pirəliyev, gizir Yavər Abdullayev və digərləri ilə doğma şəhər, rayon və qəsəbələrimizin azadlığı uğrunda çiyin-çiyinə döyüşmüşəm. Nicat sanitar təlimatçı müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Həzərxan Nəsirlidən də ağızdolusu danışdı. Vurğuladı ki, Həzərxan döyüşlər zamanı həmişə yanımda olub, yaralı və şəhidlərin döyüş meydanından çıxarılmasına kömək edib. Füzuli rayonu istiqamətində gedən döyüşlər zamanı Nicat düşmənin açdığı atəş nəticəsində kəllə-beyin travması, baş beyin silkələnməsi, barotravma və sağ ayağından yerdəyişməyən sınıq alıb.

Polkovnik-leytenant Ruslan Əbilov gizir Nicat Süleymanlı haqqında danışaraq bildirdi ki, gizir döyüşlər ərzində bölmənin yanından ayrılmayıb, daim şəxsi heyətlə birlikdə olub. "O, əlində silah düşmənlə döyüşüb, yaralıları ən təhlükəli yerlərdən çıxarıb. Nicat üzərinə düşən döyüş tapşırıqlarının öhdəsindən layiqincə gəlib. Özünün travma almasına baxmayaraq, daim bölmənin yanında olub. İtkin düşən hərbçilərimizin axtarışında da böyük qəhrəmanlıq göstərib".

Gizir Nicat Süleymanlı Vətən müharibəsində ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak etdiyinə, hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.

**Baş leytenant**
**Orxan HÜSEYNLİ,**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunda qış mövsümünə hazırlıq prosesi başlayıb

Azərbaycan Ordusunun qoşun növləri, birlik, birləşmə və hərbi hissələrində qış mövsümünə hazırlıqla əlaqədar təchizat və təminat işləri başlayıb.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, hərbi hissələrdə silah və texnikanın payız-qış mövsümünə uyğun istismar şəraitinə keçidi təşkil olunub.

Döyüş növbətçiliyi yerinə yetirən hərbi qulluqçuların ərzaq təminatı, isti geyim və yanacaq ehtiyatı, silah və sursat təchizatı normaya uyğun şəkildə döyüş mövqelərinə çatdırılıb. Yüksək dağlıq və sərt iqlim şəraiti olan ərazilərimizdə dislokasiya olunan bölmələrə normadan əlavə təminat və təchizat vasitələri ayrılıb.

İşğaldan azad edilən ərazilərimizdə dislokasiya olunan Azərbaycan Ordusunun bölmələrinin qış mövsümünə hazırlığına və təminat təchizatına xüsusi diqqət yetirilir. Şəxsi heyətin təchizat və təminatı qış ayları ərzində heç bir problem və çətinlik çəkmədən xidmət aparmağa imkan verəcək.





Qış istismar rejiminə keçidlə əlaqədar sərt iqlim şəraitində, dağlıq-düzənlik ərazidə, gecə və gündüz rejimində fasiləsiz xidmət aparmaq üçün hərbi hissələrin döyüş qabiliyyətinin daha da artırılması, eləcə də döyüş hazırlığının yüksək səviyyədə saxlanılması üçün planlı şəkildə bütün zəruri tədbirlər həyata keçirilir.

Silah və texnikanın, o cümlədən aviasiya vasitələrinin qış dövründə fasiləsiz və dayanıqlı istismarını təmin etmək məqsədilə bütün hərbi hissələr mərkəzləşdirilmiş qaydada yanacaq-sürtgü materialları, digər zəruri ehtiyat hissələri və avadanlıqlarla təmin edilir. Döyüş texnikalarının və hərbi nəqliyyat vasitələrinin yanacaq-sürtgü materialları mövsümü tələblərə uyğun olaraq dəyişdirilərək ən çətin və soyuq iqlim şəraitində istismar olunması üçün döyüşə hazır vəziyyətə gətirilir.

# İdman

## Azərbaycanlı bodibilderlər Sevilyada qızıl medal qazanıblar



İspaniyanın Sevilya şəhərində keçirilən "Arnold Classic" turnirində azərbaycanlı bodibilder Rasim Həsənov qızıl medal qazanıb.

Tanınmış kinoaktyor və bodibilder Arnold Şvartsneqerin himayəsi altında keçirilən nüfuzlu yarışda dünyanın hər yerindən - Qvatemaladan Hindistana, Omandan Salvadora qədər ölkələri əhatə edən "dəmir adam"lar iştirak ediblər. "Muscular Men's physique" kateqoriyasının mütləq qalibi olan Rasim Həsənov bütün rəqiblərindən güclü olub.

"Arnold Classis" turnirində Rasim Həsənovla yanaşı, milli komandamızın digər üzvü Əliyulla Abbaszadə də qızıl medal qazanıb. Beləliklə, bodibilderlərimiz Sevilyadakı turnirdə Azərbaycan idman tarixinin yeni səhifəsini qızıl hərflərlə yazıblar.

Qeyd edək ki, 2021-ci il Rasim Həsənov üçün uğurla başlayıb. 32 yaşlı atletimiz may ayında İspaniyanın Santa Susanna şəhərində keçirilən bodibildinq üzrə Avropa çempionatının qalibi olub. Hazırda isə R.Həsənov noyabrda həmin şəhərdə təşkil olunacaq bodibildinq üzrə dünya çempionatında iştirak etməyə hazırlaşır.

## Azərbaycan cüdoçusu Turan Bayramov dünya çempionatının gümüş medalına layiq görülüb

JUNIOR WORLD JUDO CHAMPIONSHIPS OLBIA 2021

İtaliyanın Olbia şəhərində gənc cüdoçular arasında keçirilən dünya çempionatında Azərbaycan təmsilçisi Turan Bayramov gümüş medal qazanıb.

Çempionatda 60 kiloqram çəki dərəcəsində mübarizə aparan T.Bayramov final görüşündə Giorgi Sardalaşviliyə (Gürcüstan) məğlub olaraq gümüş medalla kifayətlənib.

Oktyabrın 10-dək davam edəcək turnirə 73 ölkədən 500-dən çox cüdoçu qatılacaq.

## Bakıda keçiriləcək "Böyük dəbilqə" turnirində 10 ölkədən cüdoçuların iştirakı təsdiqlənib



Noyabrın 5-7-də Bakıda keçiriləcək cüdo üzrə "Böyük dəbilqə" turnirində iştirak edəcək ölkələrin qeydiyyatı davam edir.

Beynəlxalq Cüdo Federasiyasının saytı xəbər verir ki, turnirdə artıq 10 ölkə - Bolqarıstan, Kanada, Kolumbiya, Çexiya, Danimarka, Böyük Britaniya, Sloveniya, Litva, Serbiya və Venesuela iştirakını təsdiqləyib.

Paytaxtımızda keçiriləcək nüfuzlu yarışda iştirak edəcək Azərbaycan komandasının heyəti isə hələ açıqlanmayıb.

## Fudokançılarımız Avropa çempionatında daha iki medal qazanıblar



Polşanın Katovis şəhərində fudokan döyüş növü üzrə 25-ci Avropa çempionatında Azərbaycan idmançıları uğurlu çıxışlarını davam etdirirlər.

Sentyabrın 5-də 18-21 yaşlı fudokançılarımızdan Əsəd İmanov gümüş, Nicat Əsədov bürünc medal qazanıblar. Azərbaycan komandası bu nəticə ilə şəxsi kumite yarışlarında (18-21 yaşlılar) üçüncü pillədə qərarlaşıb.

Bundan əvvəl idmançımız Elməddin Səlimli uşaqlar arasında Avropa çempionatının qalibi olub.

Turnirdə ölkəmizi Dünya Fudokan Federasiyasının Azərbaycanda rəsmi və səlahiyyətli nümayəndəsi Vüsal Abdullazadənin rəhbərliyi altında 4 idmançı təmsil edir.

**AZƏRTAC-ın materialları əsasında**


| Baş redaktor vəzifəsini icra edən | Telefonlar | Ünvanımız | Növbətçi | Qəzetin hesabı | | |
|---|---|---|---|---|---|---|
| kapitan Məhəmməd NƏSİRLİ | Baş redaktor: (012) 510-71-97 (faks); Baş redaktorun müavini: (012) 510-64-27; Məsul katib: (012) 510-71-98; Məktublar şöbəsi: (012) 510-64-28. | Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi | Vahid MƏHƏRRƏMOV | Nərimanov Rayon Xəzinədarlığı Kod: 200189 VÖEN: 1500428611 | Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır. Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz. | Lisenziya № 361 Sifariş № 657 Nüsxə 4044 |